# Tibb bacısı (qardaşı) işi

*ixtisası üzrə təhsil proqramı*




**Fəxriyyə Məmmədova**

*ATU-nun Tibb bacısı (qardaşı) işi ixtisası üzrə proqram koordinatoru,*
*II Uşaq xəstəlikləri kafedrasının dosenti*

*Bakı-2026*

# Tibb bacılarının/qardaşlarının
# işinə müasir baxış




- ÜST verilən məlumata görə, tibb bacıları səhiyyə sistemində xidmətlər göstərən **bütün tibb işçilərinin yarıdan çoxunu** təşkil edir.
- **2030-cu** ilə qədər tibbi xidmətlərin ümumdünya səviyyəsini təmin etmək üçün dünyaya əlavə olaraq **9 mln-dan çox tibb bacısı lazım olacaq**
- Dövlət Statistika Komitəsinin son məlumatına görə, Azərbaycanda 52 min 807 orta tibb işçisi var ki, onların da **37 322 nəfəri tibb bacıları/qardaşlarıdır.**





*International Council of Nurses: who we are. Geneva: International Council of Nurses (https://www.icn.ch/who-we-are, по состоянию на 19 февраля 2020 г.).*
*Состояние сестринского дела в мире, 2020 г.: вложение средств в образование, рабочие места и воспитание лидеров [State of the world's nursing 2020: investing in education, jobs and leadership]. Женева: Всемирная организация здравоохранения; 2020. Лицензия: CC BY-NC-SA 3.0 IGO.*

- Müasir səhiyyədə tibb bacısının rolu əhəmiyyətli dərəcədə genişlənmişdir.
- Tibb bacısı artıq **yalnız icraçı deyil**, **müstəqil qərarvermə bacarığı olan mütəxəssisdir.**
- Təqdim olunan proqram səhiyyə sisteminin real ehtiyaclarına cavab olaraq yaradılan bir təhsil proqramıdır.



# Azərbaycanda «Tibb bacısı işi» bakalavriat ixtisasının yaradılması

İxtisasın yaradılma məqsədi: Avropa təhsil sisteminə inteqrasiya, o cümlədən 1999-cu ildə imzalanmış **Bolonya Bəyannaməsinin** müddəalarının həyata keçirilməsi.

EUROPEAN
Higher Education Area

bologna
process




*https://ehea.info/page-azerbaijan#:~:text=Azerbaijan%20has%20been%20a%20full%20member%20of,since%202005.%20National%20Report.%20Responsible%20national%20authority.*

# ATU-nun
# «Tibb bacısı (qardaşı) işi» ixtisası




- ATU - Azərbaycanda ali təhsilli tibb bacılığı sahəsində mütəxəssislərini hazırlayan **ilk** ali təhsil müəssisəsidir.
- Proqram Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanununa uyğun hazırlanmışdır.
- Azərbaycan Tibb Univesitetinin nəzdində «Tibb bacısı işi» ixtisası üzrə təhsil 2020 –ci ildən **AR Təhsil Nazirliyinin 28.08.2020 il tarixli F386 №-li qərarına** əsasən həyata keçirilir.
- İxtisasın şifri: 050808 (6009005)
- Təhssil səviyyəsi - **Bakalavriat**
- Proqramın həcmi **240 AKTS** təşkil edir.
- Təhsil müddəti – **4 il**
- ATU-nun İctimai-səhiyyə fakültəsi
- Təhsil yalnız əyani formada həyata keçirilir

# ATU-nun «Tibb bacısı (qardaşı) işi» ixtisasının tədris məqsədləri

*Peşəkar tibb bacılarının hazırlanması*

*Məzunların əmək bazarına və davamlı təhsilə hazırlanması*

*İşəgötürənlər üçün şəffaf və aydın kompetensiya modeli*

*Əsas fəaliyyət istiqamətləri:*

- tibb bacısının klinik təcrübəsi;
- təşkilat və idarəetmə;
- pedaqoji;
- araşdırma.



## *Müalicə və diaqnostik fəaliyyət sahəsində (klinik təcrübə):*

- xəstəxanada və klinikada müxtəlif yaş qruplarından olan xəstələrə tibbi və diaqnostik yardımda iştirak;
- xəstəxanada və evdə tibb bacısının xidmətinin təşkili və həyata keçirilməsi;
- xəstənin vəziyyətinin qiymətləndirilməsi və kəskin xəstəliklər və bədbəxt hadisələr zamanı təcili tibbi yardımın göstərilməsi;
- epidemiyaların ekstremal şəraitində, fəlakət mərkəzlərində əhaliyə tibbi yardım.



## *Reabilitasiya fəaliyyəti sahəsində*:

- reabilitasiya proqramlarının və tədbirlərinin həyata keçirilməsi;
- reabilitasiya işinə tibb bacısı dəstəyinin təşkili.



## *Profilaktik fəaliyyət sahəsində:*

- müxtəlif yaş qruplarından olan əhalinin sağlamlığının möhkəmləndirilməsi və saxlanması üzrə tədbirlərin həyata keçirilməsi;
- təlimin təşkili və xəstənin və onun ətraf mühitinin təliminə nəzarət;
- xəstənin sağlamlığı üçün fiziki, psixi, sosial, ekoloji, etnik risk faktorlarının müəyyən edilməsi və onların sağlamlığa təsirinin azaldılması ilə bağlı ictimaiyyətə məsləhətlərin verilməsi;
- təhlükəsiz xəstəxana mühitinin təmin edilməsi; xəstəyə və ailəsinə müxtəlif yaş dövrlərində sağlamlığını qorumağı, qayğı və özünə qulluq etməyi, sağlam həyat tərzini öyrətmək;
- profilaktika şöbəsinin (kabinetinin), sağlamlıq mərkəzinin işini təmin etmək

## *Təşkilati və idarəetmə fəaliyyəti sahəsində:*

- tibbi sənədlərin uçotu və hesabatının aparılması;
- müxtəlif səviyyələrdə tibb bacısı xidmətlərinin işinin təşkili;
- tibb bacısı fəaliyyətində innovativ texnologiyaların tətbiqi;
- tibbi və statistik məlumatların toplanması və emalının təşkili;
- tibb təşkilatlarında xəstələrin qalması və tibb işçilərinin işləməsi üçün əlverişli şəraitin yaradılması








## *"Tədqiqat fəaliyyəti" sahəsində:*

- müxtəlif yaş və cins qruplarından olan əhalinin sağlamlıq göstəriciləri, onların sağlamlıq vəziyyətini xarakterizə edən məlumatların toplanması və ümumiləşdirilməsi;
- elmi ədəbiyyatın və rəsmi statistik icmalların təhlili;
- tibb bacısı və ictimai sağlamlıq sahəsində elmi və praktik tədqiqatların aparılması.

*"Pedaqoji fəaliyyət" sahəsində:*

- tibb bacısı kadrlarının hazırlanması və ixtisasının artırılması sistemində pedaqoji fəaliyyətin həyata keçirilməsi;
- tibb bacısı işçilərinin hazırlanması və peşəkarlığının artırılması üçün tədris-metodiki materialların işlənib hazırlanması;
- tələbələrin yaradıcılıq qabiliyyətlərinin, özünü öyrənmək bacarığının inkişafı;
- tədris prosesinin planlaşdırılması, metodik işin həyata keçirilməsi, pedaqoji prosesin nəticələrinin qiymətləndirilməsinə yönəlmiş nəzarət tədbirlərinin həyata keçirilməsi;
- tarixən formalaşmış pedaqoji metodların ən yaxşı nümunələrinin tədris prosesinin həyata keçirilməsində tətbiqi, habelə yeni pedaqoji texnologiyaların işlənib hazırlanması.






**"Tibb bacısını tibb bacısı öyrədir"**



TƏSDİQ EDİRƏM
Tədris və müalicə işləri üzrə prorektor
_________ t.e.d., prof. Sabir Əliyev
"03" 09

**AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ AZƏRBAYCAN TİBB UNİVERSİTETİ**
İxtisasın şifri və adı: **050808 – TİBB BACISI İŞİ**

Təhsil müddəti 4 il
**TƏDRİS PLANI VƏ FƏNLƏRİN KODLARI**

| Sıra sayı | Fənlərin adı | AKTS (Kredit sayı) | Fənnin kodu |
|---|---|---|---|
| | **İXTİSASIN TƏDRİS PLANINDA (STANDARTDA) NƏZƏRDƏ TUTULAN ÜMUMİ FƏNLƏR BLOKU (Məcburi) – 30 kredit** | | |
| 1 | Azərbaycan tarixi | 5 | ÜF-01 |
| 2 | Azərbaycan dilində işgüzar və akademik kommunikasiya | 4 | ÜF-02 |
| 3 | Xarici dil | 15 | ÜF-03 |
| 4 | **Seçmə fənlər:** | 6 | ÜF-04 |
| | 4.1. Fəlsəfə, hüququn əsasları, bioetika, multikulturalizmə giriş | 3 | |
| | 4.2. İnformasiya texnologiyaları, informasiyanın idarəedilməsi | 3 | |
| | **İXTİSASIN TƏDRİS PLANINDA (STANDARTDA) NƏZƏRDƏ TUTULAN İXTİSAS FƏNLƏR BLOKU (Məcburi) – 140 kredit** | | |
| 5 | Mülki müdafiə | 3 | İF-05 |
| 6 | İnsan anatomiyası | 6 | İF-06 |
| 7 | Normal fiziologiya | 6 | İF-07 |
| 8 | Biokimya | 3 | İF-08 |
| 9 | Tibbi mikrobiologiya | 3 | İF-09 |
| 10 | Patologiya | 6 | İF-10 |
| 11 | Tibb bacısı üçün farmakologiya | 3 | İF-11 |
| 12 | Tibb bacılığının əsasları | 20 | İF-12 |
| 13 | Tibb bacılığında menecment | 3 | İF-13 |
| 14 | Təcili yardımda tibb bacılığı | 15 | İF-14 |
| 15 | İctimai sağlamlıqda (Ailə təbabətində) tibb bacılığı | 15 | İF-15 |
| 16 | Daxili xəstəliklərdə tibb bacılığı | 9 | İF-16 |
| 17 | Mamalıq ginekologiyada tibb bacılığı | 12 | İF-17 |
| 18 | Cərrahi xəstəliklər tibb bacılığı | 13 | İF-18 |
| 19 | Psixiatriyada tibb bacılığı | 8 | İF-19 |
| 20 | Pediatriyada tibb bacılığı | 15 | İF-20 |
| | **ALİ TƏHSİL MÜƏSSİSƏSİNİN MÜƏYYƏN ETDİYİ FƏNLƏR BLOKU (Məcburi) – 40 kredit** | | |
| | **İXTİSASLAŞMAYA AİD MƏCBURİ FƏNLƏR – 30 kredit** | | |
| 21 | Histologiya | 2 | İMF-01 |
| 22 | Patoloji fiziologiya | 2 | İMF-02 |
| 23 | Parazitologiya | 2 | İMF-03 |
| 24 | Biostatistika və epidemiologiya | 3 | İMF-04 |
| 25 | Palliativ qulluq üçün tibb bacısı | 4 | İMF-05 |
| 26 | Evdə xəstə xidmətində tibb bacılığı | 4 | İMF-06 |
| 27 | Onkologiyada tibb bacılığı | 2 | İMF-07 |
| 28 | Əmək mühafizəsində (əmək sağlamlığında) tibb bacılığı | 3 | İMF-08 |
| 29 | Yoluxucu xəstəliklərdə tibb bacılığı | 5 | İMF-09 |
| 30 | Tibb bacılığında pedaqogika | 3 | İMF-10 |
| | **ALİ TƏHSİL MÜƏSSİSƏSİNİN MÜƏYYƏN ETDİYİ SEÇMƏ FƏNLƏR BLOKU (Seçməli) – 10 kredit** | | |
| 1 | Tibb bacılığında etika | 4 | İSF-01 |
| 2 | Kinezologiya | 4 | İSF-02 |
| 3 | Ünsiyyət metodları | 4 | İSF-03 |
| 4 | Tibb bacısı üçün tədqiqat | 4 | İSF-04 |
| 5 | Cərrahi xəstəliklər | 3 | İSF-05 |
| 6 | Daxili xəstəliklər | 3 | İSF-06 |
| 7 | Geriatriyada tibb bacılığı | 4 | İSF-07 |
| 8 | Nutrisiologiya | 3 | İSF-08 |
| 9 | Psixologiyanın əsasları | 3 | İSF-09 |
| 10 | Sağlamlığın təbliği | 4 | İSF-10 |
| | ***Seçim blokuna aid fənlərdən tələbələr 10 kreditə uyğun fənlər seçməlidir*** | | |
| | **TƏCRÜBƏ– 30 kredit** | | |
| 1 | Klinik bacarıqlar | 10 | TE-01 |
| 2 | Tibb bacılığının peşə təcrübəsi: | 20 | TE-02 |
| | Terapiyada | 3 | |
| | Cərrahiyədə | 3 | |
| | Pediatriyada | 4 | |
| | Mamalıq-ginekologiyada | 4 | |
| | Psixiatriyada | 2 | |
| | Ailə təbabətində | 4 | |



# Ümumi kompetensiyalar

Məzunlar aşağıdakı bacarıqlara yiyələnirlər:

- Dövlət dilində və ən azı bir xarici dildə peşəkar ünsiyyət
- İnformasiya texnologiyalarından istifadə
- Komandada işləmək bacarığı
- Tənqidi düşünmə və qərarvermə
- Etik, sosial və peşəkar məsuliyyət



# Peşəkar kompetensiyalar

- Müasir tibb bacısı praktikasına uyğun bilik və bacarıqlara malik olur
- Pasiyentin vəziyyətini qiymətləndirir və qulluq planı tərtib edir
- Sübutlara əsaslanan tibb prinsiplərini tətbiq edir
- Pasiyent və ailə ilə etik çərçivədə ünsiyyət qurur
- Həkim və digər səhiyyə işçiləri ilə əməkdaşlıq edir



# İlk məzunlarımız (2024)








# Təhsil pillələri



*Bakalavr pilləsi* → *Magistratura pilləsi* → *Doktorantura pilləsi*

**Magistratura pilləsi** ↓

**Müəllim**
**İdarəci (menecer)**

**Doktorantura pilləsi** ↓

**Elmi işçi**







**2025**

**"Tibb bacısı (qardaşı) işi"**

**Kod: 7009006**

**Müddət: 2 il**

**Həcmi: 120 kredit**

**İxtisaslaşmalar:**

- ✓ Pediatriyada tibb bacısı (qardaşı) işi
- ✓ Cərrahiyyədə tibb bacısı (qardaşı) işi
- ✓ Mamalıq və ginekologiyada tibb bacısı (qardaşı) işi
- ✓ Anesteziologiya, reanimasiya və intensiv terapiyada tibb bacısı (qardaşı) işi
- ✓ Stomatologiyada tibb bacısı (qardaşı) işi
- ✓ Təcili tibbdə tibb bacısı (qardaşı) işi



# Düşüncəni dəyişə bilmişikmi?





# Diqqətinizə görə minnətdaram!

